**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin 2018- ci il 16 may tarixli Ü-012 nömrəli əmri ilə təsdiq edilmiş**

**Beynəlxalq yarışlarda iştirak üçün idman atlarının Azərbaycan Respublikasına idxalı zamanı**

## BAYTARLIQ TƏLƏBLƏRİ

Hazırkı sertifikatın qüvvəsi idman və tamaşa tədbirlərində iştirak üçün 90 gündən artıq olmayan müddətə Azərbaycan Respublikasının ərazisinə idxal edilən atlara şamil olunur.

Azərbaycan Respublikasına idxala atların infeksion ensefalomielitin bütün növlərinə, atların Afrika taununa qarşı peyvənd edilməmiş, aşağıdakı yoluxucu xəstəliklərdən azad təsərrüfatlardan və inzibati ərazilərdən olan sağlam heyvanlara icazə verilir:

- ölkə ərazisində son 3 il ərzində - atların bütün növ infeksionensefalomielitindən, atların Afrika taunundan;
- inzibati ərazidə (ştat, əyalət, dairə, torpaq və s.) son 6 ay ərzində - dabaq, vezikulyar stomatit, virulsu artrit, atların qripi və manqodan;
- inzibati ərazidə (ştat, əyalət, torpaq, dairə və s.) son 12 ay ərzində - cütləşmə xəstəliyi, sura (tripanosoma Evansi), piroplazmoz (babeziya Kabani) və nuttaliozdan (babeziya Ekvi);
- təsərrüfatın ərazisində son 3 ay ərzində - rinopnevmoniya, infeksion anemiya, atların infeksion metriti və quduzluqdan;
- təsərrüfatın ərazisində son 20 gün ərzində - qarayaradan.

Göndərilməzdən öncə atlar ixracatçı ölkənin dövlət baytarlıq xidmətinin nəzarətində saxlanılmalıdır. Atlar qansoran həşəratlardan qorunan yerlərdə 40 gün müddətində karantində saxlanılmalı, karantində saxlanıldıqdan 28 gün sonra atların afrika taunu qrupu virusuna görə antitel aşkarlayıcı seroloji müayinələrin nəticələri mənfi olmalıdır.

Yarışlara gətirilən atlar FEİ-nin beynəlxalq pasportları ilə müşaiyət olunmalı və göndərilmədən öncə 30-45 gündən gec olmayaraq atların qrip xəstəliyinə qarşı inaktivasiya edilmiş vaksini ilə peyvənd olunmalı və son 40 gün müddətində Atların afrika taunu xəstəliyinə görə peyvəd olunmamalıdırlar.

Nəqliyyat vasitələri qansoran həşaratların hücumunun qarşısının alınması üçün işlənilir və hazırlanır (nəqliyyat vasitəsi və karantin yeri daxil olmaqla).

Hazırkı tələblərdə göstərilmiş şərtlərin yerinə yetirilməsi diaqnostik müayinələrin və peyvəndlərin aparıldığı tarixlərin göstərildiyi ixracatçı ölkənin dövlət baytar həkimi tərəfindən imzalanmış, ona aydın olan dildə və beynəlxalq dildə tərtib olunmuş baytarlıq sertifikatları ilə tam təsdiq olunmalıdır.

Heyvanların Azərbaycan Respublikasına göndərilməsi üçün yüklənilməsi yalnız idxalçı tərəfindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən icazənin alınmasından sonra mümkündür.

Azərbaycan Respublikasının ərazisinə idxal edildikdən sonra atlar Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin nəzarəti altında yerləşdirilir və saxlanılırlar. Müxtəlif ölkələrdən gətirilmiş atlar bilavasitə idman yarışlarında iştirak istisna olmaqla, qaldıqları bütün müddət ərzində təcrid olunmuş vəziyyətdə saxlanılırlar. İdman tədbirlərinin bitməsindən sonra atlar Azərbaycana gətirildikləri mənşə ölkənin baytarlıq sertifikatı üzrə əlavə müayinələr və işləmələr aparılmadan Azərbaycan Respublikasının ərazisindən çıxarılmalıdırlar.